# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

## AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ PUBLİK HÜQUQİ ŞƏXS

AZƏRBAYCAN DÖVLƏT
MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT
UNİVERSİTETİ

**«Təsdiq edirəm»**
**ADMİU-nun rektoru**
**__________professor C. E. Mahmudova**

# TƏHSİLALANLARIN UNİVERSİTETDAXİLİ NİZAM-İNTİZAM QAYDALARI

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin
Elmi Şurasının «30» may 2023-cü il tarixli iclasının
09 №li protokolu ilə təsdiq edilmişdir

**BAKI — 2023**

## I. ÜMUMİ MÜDDƏALAR

**1.1.** "Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Təhsilalanların Universitetdaxili nizam-intizam Qaydaları" (bundan sonra – Qaydalar) Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (bundan sonra – Universitet) təhsil alan bütün təhsilalanın Universitet daxilində ümumi davranışını və tədris prosesi iştirakçıları ilə qarşılıqlı münasibətlərini tənzimləyən normalar məcmusundan ibarətdir.

**1.2.** Bu Qaydalar Azərbaycan Respublikasının Konstitusiyasına, "Təhsil Haqqında" Qanununa, digər qanunvericilik aktlarına və ADMİU-nun müvafiq qayda və təlimatlarına uyğun hazırlanmışdır.

**1.3.** Bu Qaydaların tətbiqində əsas məqsəd təhsilalan arasında tədris intizamını möhkəmləndirmək və onlarda tədris prosesinə şüurlu yanaşmanı formalaşdırmaqdır.

**1.4.** Bu Qaydalar Universitetə daxil olduğu andan etibarən bütün təhsilalan üçün məcburidir.

**1.5.** Bu Qaydaların pozulmasına görə təhsilalana intizam tənbehi tətbiq edilir.

**1.6.** Bu Qaydaların tətbiqi zamanı aşağıdakı prinsiplər əsas götürülür:

a) Bərabərlik prinsipi: Qaydaları pozmuş təhsilalan irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, maddi vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq intizam məsuliyyətinə cəlb olunurlar.

b) Ədalət prinsipi: Qaydaları pozmuş tələbəyə tətbiq edilən intizam tənbehi ədalətli olmalıdır, yəni pozuntunun xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına uyğun olmalıdır.

c) Humanizm prinsipi: Qaydaları pozmuş təhsilalana tətbiq edilən intizam tənbehi insan ləyaqətini alçaltmaq məqsədi daşıya bilməz.

## II. TƏHSİLALANLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**2.1.** Universitetdə təhsilalan aşağıdakı hüquqlara malikdirlər:

a) dövlət təhsil standartlarına uyğun təhsil almaq, elm və mədəniyyətin müasir səviyyəsinə uyğun müvafiq bilik qazanmaq və tədris fənlərinin seçilib müəyyənləşdirilməsində iştirak etmək;

b) universitetin fəaliyyəti ilə bağlı mühüm məsələlərin müzakirə və həllində iştirak etmək;

c) universitet kitabxanasından, internetdən, tədris vasitələrindən (musiqi alətləri, kino-televiziya üçün texniki avadanlıqdan, "Tədrisfilm" studiyasından, digər bölmələrin xidmətindən) pulsuz istifadə etmək;

ç) elmi-tədqiqat işlərində, konfranslarda, simpoziumlarda iştirak etmək, öz işlərini nəşrə, həmçinin universitetin nəşrlərinə təqdim etmək;

d) sərgi və konsertlərdə, tamaşa və çəkilişlərdə iştirak etmək;

e) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada rəhbərliyin əmr və sərəncamlarından şikayət vermək;

ə) dövlət təhsil standartı çərçivəsində tədris planı fənlərindən başqa əlavə mövzu və tədris fənləri daxil olan, eləcə də mütəxəssis hazırlığı üçün sifarişçinin maraqlarını əks etdirən fərdi plan üzrə təlim almaq;

f) özünün şərəf və ləyaqətinə hörmət tələb etmək;

g) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlar.

**2.2.** Universitetdə təhsilalan aşağıdakı vəzifələri yerinə yetirməyə borcludur:

a) təhsil aldığı müddətdə Universitetin nizamnamə, əsasnamə, əmr, sərəncam, Qaydalar və s. əməl etmək;

b) tələbə yoldaşlarına, Universitet əməkdaşlarına qarşı diqqətli olmaq və onlara hörmət etmək;

c) Universitetin əmlakını qorumaq və onun korlanması və itməsinə görə müəyyən olunmuş qaydada müvafiq maddi məsuliyyət daşımaq;

ç) tələbə adına yaraşmayan və qadağan edilmiş hərəkətlərə yol verməmək;

d) dərs prosesinin normal gedişinə mane olan hərəkətlər etməmək;

e) Universitetin nüfuzuna, mənəvi dəyərlərinə zidd hərəkətlər etməmək;

ə) ixtisas üzrə tədris planının tələblərini yerinə yetirmək və tədris planı ilə nəzərdə tutulan tədris məşğələlərinin bütün növlərində iştirak etmək;

f) cavabdeh şəxslərin icazəsi olmadan tədris auditoriyaları və digər otaqlardan əşya və müxtəlif avadanlıqları çıxarmamaq;

g) rəhbərliyin və ya daxili mühafizə əməkdaşlarının tələbi ilə şəxsiyyəti təsdiq edən sənədi, yaxud tələbə biletini dərhal təqdim etmək;

ğ) həm universitetdə, həm də universiteti təmsil etdiyi ictimai yerlərdə nizam-intizamlı və səliqəli olmaq;

h) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələr.

## III. TƏDRİS PROSESİNİN TƏŞKİLİ QAYDALARI

3.1. Universitetdə məşğələlər müəyyən edilmiş qaydada səlahiyyətli orqanlar tərəfindən təsdiq edilən tədris standartları, tədris planı və proqramları əsasında hazırlanmış və təsdiq edilmiş cədvəl üzrə həyata keçirilir.

3.2. Dərs cədvəli hər semestr üçün tərtib edilir və hər semestrin başlanmasına 5 gün qalmış lövhədən asılır.

3.3. Universitetdə dərs məşğələlərinin başlanması və bitməsi qrafiki rektorun ayrıca verilmiş əmri ilə müəyyən edilir.

3.4. Zəngdən sonra təhsilalanın növbəti fasiləyə kimi auditoriyaya girməsi, yaxud dərs zamanı tərk etməsi qadağan edilir.

3.5. Dərs zamanı dərsin normal gedişini pozacaq mobil telefonlardan və digər informasiya texnologiyalarından istifadə edilməsi qəti qadağandır.

3.6. Məşğələlər başlandıqdan sonra bütün dərs otaqlarında və onlarla yanaşı olan otaqlarda məşğələlərin normal gedişi üçün zəruri olan sakitlik və qayda-qanun təmin edilməlidir.

3.7. Tədris intizamını möhkəmləndirmək məqsədilə Universitet binasında aşağıdakılar qadağan edilir:

a) məşğələ zamanı dəhlizlərdə ucadan danışmaq, səs-küy salmaq;

b) kitabxanalarda oxuculara mane olacaq səviyyədə danışmaq və səs-küy salmaq;
c) qadağan olunmuş yerlərdə siqaret çəkmək;
ç) dəhlizləri və auditoriyaları zibilləmək.

## IV. MÜVƏFFƏQİYYƏTƏ GÖRƏ HƏVƏSLƏNDİRMƏ

**5.1.** Akademik müvəffəqiyyətlərinə, universitetin elmi-tədqiqat, yaradıcılıq və ictimai həyatında fəal iştirakına görə təhsilalan üçün aşağıdakı həvəsləndirmə tədbirləri təyin edilir:
a) təşəkkür elan etmə;
b) fərmanla təltif etmə;
c) qiymətli hədiyyələrlə təltif etmə;
ç) adlı təqaüdlə təqdim etmə.
**5.2.** Həvəsləndirmələr təhsilalanın həmkarlar təşkilatının rəyi soruşulmaqla rektorun əmri ilə elan edilir və iclasda qrup (fakültə) təhsilalanın nəzərinə çatdırılır.
**5.3.** Həvəsləndirmələr haqqında əmrlərdən çıxarış təhsilalanın şəxsi işində saxlanılır.

## V. NİZAM-İNTİZAM QAYDALARININ POZULMASINA GÖRƏ MƏSULİYYƏT

5.1. Qaydaların pozulmasına görə təhsilalana qarşı aşağıdakı intizam tənbehi tədbirlərindən biri tətbiq edilir:
a) xəbərdarlıq;
b) töhmət;
c) sonuncu xəbərdarlıqla şiddətli töhmət;
ç) Universitetdən xaric edilmə (bir semestr, iki semestr və ya daha uzun müddətə).
5.2. Xəbərdarlıq təhsilalana hərəkət və davranışlarında daha diqqətli olmasının vacibliyini yazılı şəkildə bildirilməsidir və bu, aşağıdakı hallarda verilir:
a) başqalarına qarşı kobudluq və hörmətsizlik etdikdə;
b) başqalarını narahat edəcək şəkildə ucadan danışdıqda, qışqırdıqda, və səs-küy saldıqda;
c) ətrafın təmizliyinə riayət etmədikdə;
ç) Universitetin səlahiyyətli şəxsləri tərəfindən soruşulan sualları və verilən sorğuları üzrlü səbəb olmadan vaxtında cavablandırmadıqda;
d) Universitetdə müəyyən olunmuş yerlər xaricində elanlar asdıqda;
e) Universitetin müvafiq strukturlarının icazəsi ilə asılmış elanları qopardıqda, dəyişdirdikdə, qaraladıqda və ya yararsız hala saldıqda;
ə) tədris prosesinə dair məsələlərlə bağlı sual və məsləhətlər üçün professor-müəllim, inzibati və tədris-köməkçi heyətə iş günləri (I-V günlər) saat 21:00-dan sonra, həmçinin şənbə və bazar günləri müraciət etdikdə;
f) yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə.
5.3. Töhmət təhsilalana aşağıdakı hallarda verilir:
a) Universitet səlahiyyətli şəxsləri tərəfindən tələb olunan məlumatları onlara məqsədli şəkildə natamam və yanlış şəkildə bildirdikdə;
b) hərəkətləri və davranışı ilə dərsləri, elmi konfrans, mədəni tədbir və s. gedişini

pozduqda;

c) Universitetdə divarlara, partaların və əşyaların üzərinə yazı yazdıqda, işarələr qoyduqda, şəkil çəkdikdə, onları korladıqda;

ç) dərs vaxtı auditoriyada mobil telefonlardan istifadə etdikdə;

d) Universitet daxilində icazəsiz olaraq elanlar və digər yazılı məlumatlar yaydıqda və asdıqda;

e) imtahanlarda köçürməyə cəhd göstərdikdə;

f) yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə.

5.3. Təhsilalana sonuncu xəbərdarlıqla şiddətli töhmət yol verdiyi intizam pozuntusu qeyd olunmaqla yazılı şəkildə bildirilir. Sonuncu xəbərdarlıqla şiddətli töhmət aşağıdakı hallarda verilir:

a) Universitet daxilində siyasi və dini təbliğatla məşğul olduqda;

b) Qaydaların pozulması ilə bağlı aparılan təhqiqata mane olduqda;

c) Universitetdən aldığı və ona aid olan sənədi istifadə üçün başqasına verdikdə və başqasına aid olan sənədi özü üçün istifadə etdikdə;

ç) Universitet daxilində və xaricində şəxslərin şərəf və ləyaqətini alçaldan şifahi və ya yazılı fəaliyyətlər göstərdikdə;

d) Universitetdə spirtli içki içdikdə və ya universitetə içkili vəziyyətdə gəldikdə;

e) Universitetdə qadağan olunmuş yerlərdə siqaret çəkdikdə;

ə) imtahanlarda köçürdükdə və ya köçürməyə şərait yaratdıqda;

f) təkbaşına və ya qrup şəklində müəllim və rəhbər işçilərin qəbul etdikləri qərarlara qarşı çıxdıqda və bununla əlaqədar təhsilalan arasında həmin şəxslərə qarşı təbliğat apardıqda və ya belə hərəkətlərə cəhd göstərdikdə;

g) Universitetdəki əşyalara, qapı, pəncərə, divar və digər yerlərə ideoloji və ya siyasi xarakterli yazılar yazdıqda, şəkil, emblem və s. yapışdırdıqda;

ğ) Universitet və ona bağlı qurumlarda, cavabdeh şəxslərdən icazə almadan, müxtəlif tədbirlər təşkil etdikdə və ya belə tədbirlərdə iştirak etdikdə;

h) Universiteti və ya onun hər hansı bir qurumunu təmsil etmək səlahiyyəti olmadığı halda özünü səlahiyyətli şəxs kimi göstərərək bəyanatlar verdikdə, iclas və ya tədbirlərdə iştirak etdikdə;

x) Universitet binaları və ərazisində qadağan olunmuş yerlərə daxil olduqda;

i) Qeyri-qanuni təşkilatlara üzv olduqda və ya bu təşkilatların lehinə fəaliyyət göstərdikdə;

j) Universitetin hər hansı bir əməkdaşına qarşı xüsusi kampaniya apardıqda, bu məqsədlə təhsilalan arasında imza topladıqda, onları təşkilatlandırdıqda və ya buna cəhd etdikdə;

5.4. Universitetdən xaric edilmə təhsilalana xaric edilməsinin və bu müddət ərzində tələbəlik hüquqlarından məhrum edilməsinin yazılı şəkildə bildirilməsidir. Universitetdən xaricetmə aşağıdakı hallarda tətbiq edilir:

a) Universitet əməkdaşları və təhsilalanlara hədə-qorxu gəldikdə;

b) Universitet əməkdaşları və təhsilalanlara zor tətbiq etdikdə;

c) bilərəkdən, planlı şəkildə universitetin nüfuzuna xələl gətirən tədbirlər keçirdikdə, iclaslar, mitinqlər və nümayişlər təşkil etdikdə, təbliğatlar apardıqda;

ç) Universitet əməkdaşlarının şərəf və ləyaqətini, şəxsiyyətini ağır şəkildə təhqir etdikdə;

c) Universitetdə oğurluq etdikdə;

e) Universitetin bina və inventarlarını yararsız hala saldıqda və informasiya sisteminə ciddi zərər vurduqda;

ə) imtahanlarda hədə-qorxu gələrək köçürdükdə və köçürən təhsilalanın imtahan otağından uzaqlaşdırılmasına mane olduqda;

f) bilərəkdən öz əvəzinə başqasının imtahan verməsinə şərait yaratdıqda və ya başqasının əvəzinə imtahan verdikdək;

g) imtahan suallarının bir qismini və ya bütövlükdə, hər hansı bir qeyri- qanuni yolla əldə etdikdə;

ğ) Universitetə aid olan hər hansı bir sənəddə imzanı saxtalaşdırdıqda;

h) Universitet sənədlərində dəyişikliklər etdikdə, başqalarını buna təhrik etdikdə;

x) Universitetin informasiya bazasına girərək özünün və ya başqasının lehinə qanunsuz əməliyyatlar apardıqda;

i) Universitet əməkdaşlarını müxtəlif yollarla (rüşvət, hədiyyə, tapşırıq və s.) ələ almaq məqsədi daşıyan davranışlara yol verdikdə;

5.5. Universitet rəhbərliyi təhsilalana qarşı intizam tənbehi tətbiq edərkən törədilən pozuntunun xarakterini və aşağıdakıları nəzərə almalıdır:

a) törədilən hadisənin ağırlıq dərəcəsi;

b) vurulan ziyanin dəyəri;

c) hadisənin baş vermə faktı və halları;

ç) intizam tənbehini yüngülləşdirən və ağırlaşdıran hallar;

d) hadisənin qəsdən və ya ehtiyatsızlıqdan törədilməsi;

e) təhsilalana xarakterizə edən amillər;

ə) hadisənin baş verməsinə təsir edən səbəb və şərait.

5.6. Təhsilalana intizam tənbehinin tətbiq edilməsi fakültə dekanının yazılı təqdimatı ilə rektorun əmrinə əsasən həyata keçirilir.

Təhsilalan 3 gün ərzində rektorun müvafiq əmri ilə tanış edilir.

5.7. İntizam tənbehi müvafiq hadisənin baş verməsinin aşkar olunduğu gündən bir ay keçənədək tətbiq edilə bilər. Bu gündən 6 ay keçdikdən sonra təhsilalana qarşı intizam tənbehi tətbiq edilə bilməz.

5.8. Təhsilalana tətbiq edilən intizam tənbehi haqqında məlumat təhsilalanın şəxsi işinə və transkriptinə qeyd edilir.

5.9. Təhsilalana tətbiq edilən intizam tənbehi haqqında məlumat təhsilalanın təhsil aldığı fakültənin elanlar lövhəsində yerləşdirilir.

## VI. İNTİZAM TƏNBEHİNDƏN APELLYASİYA VERİLMƏSİ QAYDALARI

6.1. İntizam tənbehi ilə bağlı rəsmi əmr haqqında təhsialana məlumat veriləndən 3 iş günu müddətində təhsilalan apellyasiya şikayəti verə bilər.

6.2. Apellyasiya şikayəti yalnız universitetdən xaric edilmə intizam tənbehi üçün verilə bilər.

6.3. Apellyasiya şikayəti birbaşa rektora ünvanlanır.

6.4. Apellyasiya şikayəti ilə bağlı rektor tərəfindən apellyasiya komissiyası yaradılır və

5 iş günü müddətində araşdırma aparılır.

İlkin araşdırmada iştirak edən şəxslər apellyasiya komissiyasının üzvü ola bilməzlər.

6.5. Apellyasiya komissiyası şıkayəti araşdırır və intizam tənbehi ilə bağlı verilən qərarın qüvvədə saxlanması, ləğv edilməsi və ya ona dəyişikliklər edilməsi barədə rekora tövsiyələrini verir.

6.6. Apellyasiya komissiyasının tövsiyələrinə əsasən rektor son qərar verir və bu qərar qətidir.

6.7. Təhsilalan intizam tənbehi tətbiq edildiyi gündən 1 il ərzində yenidən intizam məsuliyyətinə cəlb edilməmişsə, intizam məsuliyyətinə ümumiyyətlə cəlb edilməmiş sayılır.

6.8. Dərslərində və davranışlarında yaxşı göstəricilərə görə intizam tənbehi 6 aydan sonra vaxtından əvvəl götürülə bilər.

## VII. YEKUN MÜDDƏALAR

7.1. Qaydaların həyata keçirilməsinə Universitetin rektoru nəzarət edir.

7.2. Qaydalara əlavə və dəyişikliklər Universitetin Elmi Şurasında müzakirəyə çıxarılır və Elmi Şuranın qərarı ilə təsdiq olunur.

7.3. Qaydalar Universitetin Elmi Şurasında təsdiq edildiyi gündən qüvvəyə minir.